# MAKSİM TANK ADINA BELARUS DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ NƏZDİNDƏ AZƏRBAYCAN DİLİ VƏ MƏDƏNİYYƏTİ MƏRKƏZİ











Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi 2010-cu ilin dekabrında Bakı Slavyan Universitetinin təşəbbüsü, Belarus və Azərbaycan prezidentlərinin dəstəyi ilə açılmışdır. Mərkəzin əsas məqsədi Azərbaycan dilinin və Azərbaycan xalqının mədəni irsinin təbliği yolu ilə Belarus və Azərbaycan xalqları arasında mədəni-humanitar əlaqələrin dərinləşməsinə kömək etməkdir.

Bu illər ərzində Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universiteti və Bakı Slavyan Universiteti ilə birgə Mərkəz onlarla mədəni və maarifləndirici tədbir,

bir sıra elmi və maarifləndirici layihələr həyata keçirmişdir. Mərkəz tərəfindən Azərbaycanca-Belarusca və Belarusca-Azərbaycanca lüğətlər nəşr olunub. Hazırda belarusca-azərbaycanca danışıq kitabçası və frazeoloji lüğətlər üzərində işlər yekunlaşmaq üzrədir.

Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri Belarusda, xüsusən də qarışıq azərbaycanlı-belarus ailələrindən olan uşaqlar arasında Azərbaycan dilinin təbliğidir. Mərkəz Azərbaycan və Belarusun ali təhsil müəssisələri arasında qarşılıqlı faydalı innovativ elmi və təhsil proqramlarının mübadiləsində, hər bir ölkə üçün müvafiq sahələr üzrə universitetlərarası tələbə və professor-müəllim mübadiləsinin qurulmasında fəal iştirak edir.

Mərkəz Azərbaycanın Belarusdakı "ictimai diplomatiyasının" mühüm elementinə çevrilməyə, qardaş belarus və Azərbaycan xalqları arasında mədəni-humanitar dialoqun daha da inkişafına hərtərəfli töhfə verməyə, gündəlik müstəvidə insan təmaslarını dərinləşdirməyə çalışır.

**Mərkəz müdiri**

***İbrahimov Fuad Səfər***

**E-mail:** belcenterbsu@mail.ru

**Telefon**: 012 +994 599 08 70 (218)














Новруз


БЕЛОРУССКИЙ
ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ
ИМЕНИ МАКСИМА ТАНКА




двух стран


БЕЛОРУССКИЙ
ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ
ИМЕНИ МАКСИМА ТАНКА

